Caspian Lubricants Recycling	**ƏTRAF MÜHITIN DAVAMLILIĞI SİYASƏTİ**	**Sənəd №:**	**CLR-STM-SYT-002**
		Tarix:	**15.07.2026**
		Dəyişiklik №:	**00**

Xidmət sahəsi: "Caspian Lubricants Recycling" MMC Müxtəlif növ işlənmiş yağların, xam neftin və neft məhsullarının emalı, həmçinin regenerasiya olunmuş baza yağlarının, bitumun, kerosinin və dizel yanacağının istehsalçısıdı.
"Caspian Lubricants Recycling" MMC fəaliyyətinin xarakterini, miqyasını və ətraf mühitə mümkün təsirlərini nəzərə alaraq ətraf mühitin qorunmasını, çirklənmənin qarşısının alınmasını, təbii ehtiyatlardan səmərəli və dayanıqlı istifadəni və ekoloji fəaliyyət göstəricilərinin davamlı yaxşılaşdırılmasını əsas fəaliyyət prinsiplərindən biri hesab edir.
Şirkət Ətraf Mühitin İdarəetmə Sistemini **ISO 14001:2026** beynəlxalq standartının tələblərinə uyğun olaraq qurmağı, tətbiq etməyi, saxlamağı və davamlı olaraq təkmilləşdirməyi öhdəsinə götürür.

"Caspian Lubricants Recycling" MMC aşağıdakı öhdəlikləri qəbul edir:

- Fəaliyyətin məqsədinə, strateji istiqamətinə, təşkilati kontekstinə, məhsul və xidmətlərin xarakterinə, miqyasına və ekoloji təsirlərinə uyğun Ətraf Mühitin İdarəetmə Sistemini tətbiq etmək;
- Tətbiq olunan qanunvericilik tələblərinə, normativ-hüquqi aktlara və təşkilatın qəbul etdiyi digər uyğunluq öhdəliklərinə riayət etmək;
- Fəaliyyət, məhsul və xidmətlərlə bağlı ekoloji aspektləri, əlaqəli ekoloji təsirləri, riskləri və imkanları həyat dövrü perspektivi nəzərə alınmaqla müəyyən etmək, qiymətləndirmək və idarə etmək;
- Çirklənmənin, o cümlədən torpağa, suya və atmosferə mənfi təsirlərin, zərərli emissiyaların, sızmaların, dağılmaların və tullantıların nəzarətsiz şəkildə ətraf mühitə buraxılmasının qarşısını almaq, belə təsirləri azaltmaq və nəzarətdə saxlamaq;
- İşlənmiş yağların, neft və neft məhsullarının qəbulu, saxlanması, daşınması, emalı və istehsal prosesləri zamanı ətraf mühitə təsirlərin minimuma endirilməsini təmin etmək;
- Tullantıların yaranmasını azaltmaq, onların çeşidlənməsini, təkrar istifadəsini, bərpasını və təkrar emalını təşviq etməklə dairəvi iqtisadiyyat prinsiplərini dəstəkləmək;
- Enerji, su, xammal və digər təbii ehtiyatlardan səmərəli və dayanıqlı istifadəni təmin etmək;
- Mümkün olan hallarda istixana qazı emissiyalarını və fəaliyyətin iqlimə təsirini azaltmaq, iqlim dəyişmələri ilə bağlı riskləri və uyğunlaşma tədbirlərini nəzərə almaq;
- Biomüxtəlifliyin, ekosistemlərin və təbii yaşayış mühitlərinin qorunmasına töhfə vermək;
- Ekoloji fövqəladə halların, o cümlədən yağların, yanacağın, kimyəvi maddələrin və digər təhlükəli materialların sızması və dağılması hallarının qarşısının alınması, belə hallara hazırlıq və effektiv cavab tədbirlərinin həyata keçirilməsini təmin etmək;
- Şirkətin ekoloji siyasətinə uyğun ölçülə bilən ekoloji məqsədlərin müəyyən edilməsi və nəzərdən keçirilməsi üçün çərçivə yaratmaq;
- Müəyyən edilmiş ekoloji məqsədlərə nail olmaq üçün zəruri insan, maliyyə, texniki, informasiya və digər resursları təmin etmək;
- Əməkdaşların və şirkət adından fəaliyyət göstərən şəxslərin ekoloji məsuliyyət, sərişte və məlumatlılıq səviyyəsini davamlı olaraq artırmaq;
- Təchizatçılar, podratçılar və digər biznes tərəfdaşları ilə əməkdaşlıq zamanı müvafiq ekoloji tələbləri və həyat dövrü yanaşmasını nəzərə almaq;
- Maraqlı tərəflərin müvafiq ehtiyac və gözləntilərini nəzərə almaq və onlarla açıq, etibarlı və şəffaf ekoloji kommunikasiyanı təmin etmək;
- Ətraf Mühitin İdarəetmə Sistemini və ekoloji fəaliyyət göstəricilərini davamlı olaraq təkmilləşdirmək.

Məsuliyyətlər: Hər bir əməkdaş "Caspian Lubricants Recycling" MMC-in Davamlılıq Siyasətinin tələblərinə əməl etməyə və rəhbərliklə əməkdaşlıq etməyə borcludur ki; ətraf mühit mümkün qədər təhlükəsiz qalsın. Əməliyyatlarımızın təhlükəsizliyinə təsir göstərə biləcək hər hansı narahatlıqlar rəhbərliyə bildirilməlidir. Bu siyasətə və ya digər təhlükəsizlik tələblərinə əməl etməyən hər bir əməkdaş intizam tədbirləri ilə üzləşəcək.

Kommunikasiya: Davamlılıq Siyasətinin prinsipləri mütəmadi olaraq əməkdaşlara çatdırılacaq və onların istifadəsi üçün əlçatan olacaq.

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti CASPİAN LUBRİCANTS RECYCLİNG Limited Liability Company Azerbaijan Republic

İmza: _____ **Tarix:** 15.07.26